**Azərbaycan poeziyası**

# ŞAH İSMAYIL XƏTAYİ

# SEÇMƏ ŞEİRLƏR

QANUN NƏŞRİYYATI

Şah İsmayıl Xətayi klassik Azərbaycan şeirinin ən parlaq simalarından biridir. Onun qəzəlləri, qoşmaları, gəraylıları, bayatıları və varsağıları milli söz xəzinəmizi daha da zənginləşdirir. Xətayinin adı beş yüz ildən artıqdır ki, sevilərək və ehtiramla anılır. I Şah İsmayıl (Xətayi) həm də Azərbaycan Səfəvilər dövlətinin qurucusudur. Görkəmli siyasi xadimdir.

"Qanun" nəşriyyatının "Azərbaycan poeziyasından seçmə şeirlər" adlı layihəsində Xətayinin seçmə qəzəllərini təqdim edirik.

Şah İsmayıl Xətayi **Azərbaycan poeziyası seçmə şeirləri**
Bakı, Qanun nəşriyyatı, 2023, 264 səh.

Ölçü: 120x185 mm
Cild: qalın
Çapa imzalandı: 21.02.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərtib edən və redaktor: | Əyyub Qiyas (Qi Or El) |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor və mətn dizaynı: | Asifə Əfəndi |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-521-2

© Qanun nəşriyyatı, 2023

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım
hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar
və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

## ŞAH İSMAYIL SƏFƏVİ ŞƏXSİYYƏTİ TARİXİ QAYNAQLAR GÜZGÜSÜNDƏ

Azərbaycan dövlətçilik tarixində Şah İsmayıl Səfəvi şəxsiyyətinin xüsusi yeri vardır. Adı beş əsrdən artıq dövrdə həmişə ehtiramla anılan bu dahi Azərbaycan hökmdarının özünəməxsus xüsusiyyətləri və keyfiyyətləri bütün dövrlər üçün böyük mənəvi etalondur.

Təbii ki, ilk növbədə Şah İsmayıl Xətayi Azərbaycanın orta əsr dövlətçilik tarixində müstəsna xidmətləri olan bir şəxsiyyət kimi mühüm yer tutur. Şah İsmayıl 3,5 milyon kv.km-ə qədər hüdudları olan Azərbaycan Səfəvi İmperiyasını yaratmaqla Azərbaycan xalqını imperiya yaradan xalqlar sırasına daxil etmişdi. Təəssüflər olsun ki, dünya tarixçiliyi azərbaycanlıların yaratdığı bu imperiyanı qeyri-türk mənsublu dövlət olaraq təqdim etməkdədir. Lakin əlimizdə olan tarixi qaynaqlardan göründüyü kimi, Səfəvi dövləti Azərbaycan hüdudlarında yaranan və Azərbaycan türklərinə məxsus olan bir dövlət olub.

Dövrün mənbələrində yer alan bilgilər və XVII əsr Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi" əsərində qeyd olunan aşağıdakı məlumat bu dövlətin gerçək etnik və siyasi mahiyyətini or-

taya qoymaqdadır. Münşi yazır: "Şirvan vilayətinin uca və məşhur qalalarından olan Gülüstan qalası mühasirəyə alındı. Mühasirə vaxtı qeyb aləmindən xəbər gətirən mələk o həzrətə (Şah İsmayıla) Azərbaycanın səltənət taxtına və padşahlığına yetişmək müjdəsi verdi... O həzrət əzəmətli əmirləri çağırıb onlara dedi: "Sizə Gülüstan qalası lazımdır, ya Azərbaycan taxtı?"

Münşinin əsərində əks olunan bu qiymətli məlumat eyni zamanda, XVI əsr tarixçisi Həsən bəy Rumlunun "Əhsənüt-təvarix", anonim müəllifin "Tarixe-Şah İsmayıl Səfəvi" əsərlərində və digər mənbələrdə də əks olunub.

Tarixi qaynaqlarda verilən bu məlumatlar onu deməyə əsas verir ki, hələ Şah İsmayıl hakimiyyətə gələnə qədər Azərbaycan adlı dövlət mövcud idi və onun taxt-tacı (hakimiyyəti) İsmayıl Səfəviyə müjdə verilmişdi.

Qeyd edək ki, hətta XVI əsrə qədər də Azərbaycan dövlətinin mövcudluq faktını daha əvvəlki tarixi mənbələr də təsdiq edir. X əsrdə yazılan "Hüdud əl aləm" adlı coğrafiya əsərində qeyd olunur ki, "Ərdəbil şəhəri Azərbaycanın paytaxtıdır və Azərbaycan hökmdarları bu şəhərdə oturur". Övliya Çələbinin "Səyahətnamə"sində isə Qara Yusif və Uzun Həsən Azərbaycan padşahı kimi təqdim olunur.

Təəssüflər olsun ki, bir çoxları Şah İsmayılı qatı şiə təəssübkeşi, yaratdığı dövləti isə sırf şiə dövləti adlandırırlar. Lakin bu iddianın nə qədər yanlış olduğunu Şah İsmayılın öz şeirlərində görmək mümkündür. O, şeirlərinin birində özünü sufi adlandıraraq yazır.

*Xətayiyəm, bir halam,*
*Əlif üstündə dalam.*
*Sufiyəm təriqətdə,*
*Həqiqətdə abdalam.*

Səfəvi dövrü tarixi qaynaqları heç bir halda Səfəvi dövlətini şiə dövləti, Şah İsmayılı isə şiə məzhəbçisi kimi xarakterizə etmir. Mənbələr dahi Azərbaycan hökmdarının hakimiyyətə gəldiyi zaman “İmamiyyə” məzhəbini yüksəltdiyini vurğulayır. Bu haqda Səfəvi tarixçisi Əmir Mahmud Xandəmir özünün “Tarix-i Şah İsmayıl və Şah Təhmasib” əsərində yazır: “...Müzəffər padşah məqsədinə çatdığına görə səltənət bayrağını dalğalandırdı, türkmanların (ağqoyunluların: M.A.) zülmünü həmin məmləkətdə aradan qaldırdı. Uzun müddət ərzində kölgədə qalan İmamiyyə məzhəbini yenidən yüksəldərək zahirə çıxartdı və məsum imamların (s) adlarını yenidən ucaldaraq onlara zinət verdi... Həmin dövrdə Azərbaycan məmləkəti qazilərin qılıncının hesabına cahillərdən və təəssübkeşlərdən təmizləndi, haqq dini və on iki imam məzhəbi rəvac və rövnəq tapdı. Şah taxt-taca çıxmaqla zülm və əsarəti dünyada aradan qaldırdı, ədalət və ehsan qapılarını onun sakinlərinə – həmvətənlərinin üzünə açdı”.

Şah İsmayıl Xətayi şəxsiyyətinə ən dəqiq qiyməti Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu dahi Məhəmməd Əmin Rəsulzadə vermişdi. O yazırdı: “Uzun illər boyu ətrafındakı xalqlar arasında dərin nüfuza malik olan və Ərdəbildəki Şeyx Səfi ocağından çıxan Şah İsmayıl dövlətini qurmaq üçün hərəkətə keçir. Səfəvi dövlətinin

rəhbəri həqiqətdə bir türk sufisi və bir azərbaycanlı şairdi. Arxalandığı qüvvələr isə tamamilə türk boyları idi. Onun sadə bir türkcə ilə yazılan ilahiləri Azərbaycan hüdudlarını aşaraq, bütün türk coğrafiyasının ruhuna hakim olmuşdu. Şah İsmayılın sarayı Azəri-türk ədəbiyyatının yaradıcı ocağı və bir akademiyası idi. Səfəvi sarayının rəsmi dili də türkcə idi. Qonşu dövlətlərə göndərdiyi məktublar türkcə yazılırdı. Səfəvi dövlətinin Osmanlılara göndərdiyi məktublar türkcə ikən, Osmanlı sarayının Səfəvilərə yazdıqları məktublar farsca idi. Çevrəsindəki türkdilli şairlər Şah İsmayıla "Türki-tacidar" deyə xitab edirdilər".

Mövcud tarixi və ədəbi nümunələrə əsaslanaraq bu qənaətə gəlmək olar ki, Şah İsmayıl Səfəvinin yaratdığı Azərbaycan Səfəvi dövləti xürrəmilərin, hürufilərin, qızılbaşların uzun illər dini-siyasi həyatda mücadilə apararaq yaratdıqları bir Sufi Qızılbaş dövləti idi. Avropalı müəlliflərin Şah İsmayıla Böyük Sufi deyərək xitab etməsi, həmçinin, tarixi qaynaqlarda Səfəvi dövlətinin adının "Dövləti-Sufiyan", "Dövləti Qızılbaşan" adı ilə qeyd edilməsi bu deyilənləri təsdiq etməkdədir.

Şah İsmayıl eyni zamanda sufilərin, hürufilərin və digər təriqət mənsublarının himayəçisi olub. O, şeirlərinin birində yazırdı:

*Şah Xətayi, didarə bax,*
*Mənsur ipin boynuma tax.*
*Nəsimi oldu haqla hax,*
*O üzülən dərisidir.*

Tarixi qaynaqlarda Şah İsmayılın şəxsi keyfiyyətləri haqqında olduqca maraqlı məlumatlar var. XVI əsr ano-

nim müəllifin "Tarixi-aləmarayi-İsmayıl" əsərində Şah İsmayılın, "başına qırmızı tac qoymuş 14 yaşlı, şabalıdı saçlı, ağ üzlü və qoç baxışlı bir cavan" olduğunu bildirir. Şah İsmayılın müasiri olmuş italyan səyyahlar da dahi hökmdarın ağbəniz, yaraşıqlı, ortaboylu, enlikürək, şabalıdı saçlı və solaxay olduğunu qeyd edirlər.

Sultan Səlim öz məktublarında Şah İsmayılı qədim türk hökmdarı Əfrasiyab (Alp Ər Tonqa) ilə eyniləşdirmişdi. XVI əsr Osmanlı təzkirəçisi Qınalızadə də Səfəvi şahını "Əfrasiyab-i mərəke-yi girudar" (döyüş meydanının Əfrasiyabı) adlandırırdı.

Səfəvi dövrü mənbələrinə istinad edərək qeyd etmək olar ki, Şah İsmayıl zamanında Qızılbaş ordusunun həyata keçirdiyi 100-ə qədər döyüş əməliyyatının təxminən 1/3 hissəsindən çoxu şəxsən Şah İsmayılın sərkərdəliyi altında aparılmış və o iştirak etdiyi döyüşlərdən yalnız birində – Çaldıran vuruşmasında məğlub olmuşdu. O, özünün peşəkar süvari ordusuna arxalanaraq, açıq döyüşü üstün tutur və rəqiblərini çox vaxt qədim türk savaş ənənələri əsasında məğlub etməyi sevirdi. Səhra döyüşlərində əsasən düşmənin səflərini qəti hücumla cinahlardan yarmaqla qələbə qazanmağa üstünlük verirdi. Həmçinin, geri çəkilməyi imitasiya edərək, düşməni pusquya salmağı nəzərdə tutan "Turan taktikası" və ya "qurd oyunu" adlanan hərbi taktikadan məharətlə istifadə edirdi.

Yeri gəlmişkən, burada bir haşiyə çıxaraq qeyd edək ki, II Qarabağ savaşında Azərbaycan ordusu "Turan taktikası"ndan məharətlə istifadə etdi. Şirvanşah Fərrux Yəsara qarşı Cəbani, Ağqoyunlu Əlvəndə qarşı Şərur, Ağqoyunlu Murada qarşı Almabulağı düzündə, özbək

hökmdarı Şeybani xana qarşı Mərv yaxınlığında və Osmanlı Sultan Səlimə qarşı Çaldıran səhrasında apardığı döyüşlər Şah İsmayılın böyük meydan müharibələri hesab oluna bilər.

Şah İsmayıl müharibədə şərəf və mərdliyi ən mühüm prinsiplər hesab edirdi. Çaldıran döyüşündən öncə toplanan hərbi şurada Səfəvi sərkərdələri Məhəmməd xan Ustaclı və Nurəli Xəlifə osmanlılar üzərinə gecə ikən basqın etməyi Şah İsmayıla bildirdikdə o, bunu qorxaqlıq adlandırıb "Mən karvanbasan quldur deyiləm!" – demişdi.

Şah İsmayıl odlu silahlara nifrət edir, "namərdin mərddən ayırd edilməsi və müəyyənləşdirilməsi üçün qılınc sıyırmağın" zəruriliyini vurğulayır, topdan və topxanadan istifadənin namərd işi olduğunu deyirdi. Görkəmli səfəvişünas Oqtay Əfəndiyev yazır ki, "I Şah İsmayıl zamanında Səfəvilər odlu silahın tətbiq edilməsini insanlığa zidd əməl və qorxaqlıq, cəsarətsizlik əlaməti hesab edirdilər".

Dahi Azərbaycan hökmdarı heç vaxt məğlub etdiyi qoşunun arxasınca gedib onları təqib etməz və onların salamatlıqla qaçıb qurtulmalarına imkan yaradardı. "Aman vermək imandandır" – deyən Şah İsmayıl təslim olanları bağışlayır, hətta onları öz ordusuna qəbul edirdi. Şah İsmayıl hərbi əməliyyatlar aparılan ərazilərdə dinc əhalinin zərər çəkməsinə heç zaman imkan verməzdi.

Dini ibadətə xüsusi fikir verən Şah İsmayılın İraqdakı Kərbəla, Nəcəf, Kazimeyn, Samirə ziyarətgahlarında, İmam Rzanın Məşhəddəki məqbərəsində xüsusi rituallar həyata keçirdiyi haqqında məlumatlar var. O, hətta Nə-